**UOT 94(47)05**

# TEST ÜSULUNUN TƏTBİQİ MİLLİ TƏHSİL SİSTEMİMİZİN İLK UĞURUDUR

**G.H.MAHMUDOVA**
***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu***
***gulnaz-78@inbox.ru***

*Məqalədə müstəqilliyin ilk illərində respublikamızda həyata keçirilən təhsil islahatlarının mühüm tədbirlərindən biri olan ali və orta ixtisas təhsili müəssisələrinə test üsulu ilə tələbə qəbulu məsələləri araşdırılmışdır. Dünyanın bir çox ölkələrinin təhsil sistemində tətbiq olunan test üsulunun geniş üstünlükləri göstərilmiş, bu sistemin təkmilləşdirilməsi üçün ölkəmizdə həyata keçirilən tədbirlər öyrənilmişdir.*

**Açar sözlər:** test sistemi, tələbə qəbulu, ali təhsil

Müstəqillik qazanmış ölkəmizin gələcək inkişafı, onun dünya dövlətləri içərisində layiqli yer tutması, dövlətçiliyimizin möhkəmlənməsi, hər şeydən öncə, təhsilimizdən, onun inkişaf sürətindən asılıdır. Təhsilimizin inkişafı və tərəqqisi, milli təhsilimizi necə qurmağımızdan, milli və ümumbəşəri dəyərlərdən, dünya təcrübəsindən necə bəhrələnəcəyimizdən, təhsilimizi hansı prinsiplər əsasında idarə edəcəyimizdən asılıdır. Bütün bunlar milli təhsil sistemimizin yeni məzmun və mahiyyətdə qurulmasını zəruri edir.

1992-ci ildə respublikamızda ali məktəblərə tələbə qəbulu prinsipcə yeni-test sistemi əsasında həyata keçirilməyə başladı.

Test ingilis sözü olub, “sınaq”, “yoxlama”, ”tədqiqetmə” deməkdir. İlk dəfə 1964-cü ildə Böyük Britaniyada C.Fişeir tətbiq etmişdir. Hal-hazırda istər Amerikada, istərsə də Qərbi Avropa ölkələrində şifahi oxu, yazılış keyfiyyəti, orfoqrafiya, cəbr, həndəsə, fizika, tarix, coğrafiya və digər fənlər üzrə müvəffəqiyyət testlər vasitəsilə ölçülür və ali məktəblərə qəbul zamanı testdən istifadə edilir.

Avropa ölkələrində testləşdirmə bankının yaradılması artıq onilləri əhatə edir. Türkiyədə isə bununla 1975-ci ildən məşğul olurlar. Bu ölkələrdə test sistemləri tərəqqi edir və öz kökünü saxlamaqla müəyyən ictimai tələblərə uyğunlaşdırılır. SSRİ dağılana qədər hesab olunmuşdur ki, burjua psixologiyasının yeganə metod kimi istifadə etdikləri testlər vasitəsilə uşaqların

intellektual inkişaf səviyyələrini yoxlamaq cəhdləri və əldə olunan nəticələrin şərhi elmi prinsiplərə əsaslanmır. Sovet psixologiyasında testlərdən müəyyən sahələrdə, məsələn psixo-patoloji diaqnostikada, Daxili İşlər Nazirliyində, Müdafiə Nazirliyində şəxsin peşəyə yararlığını və s. yoxlamaq üçün istifadə olunmuşdır [10, 12 ].

Fikrimizcə, keçmiş SSRİ-də, eyni zamanda Azərbaycanda da tətbiq olunan imtahan üsulu dünyanda ən güclü və mütərəqqi üsullardan biri idi. Həmin üsuldan istifadə zamanı demək olar ki, abituriyentlərin bütün xüsusiyyətləri və bilik səviyyəsi üzə çıxa bilərdi. Çünki bu üsulun həqiqi praktiki tətbiqi abituriyentə digər yalançı metodlardan istifadə etməyə heç bir imkan vermirdi. Bu üsulun əhəmiyyəti onda idi ki, burada abituriyent imtahan götürən müəllimlə üzbəüz söhbət edirdi. Deməli, onun şəxsi keyfiyyətlərinin biruzə verilməsi üçün geniş imkanlar yaranırdı ki, bu da abituriyentləri bilik səviyyələrinə görə bir-birindən ayırmağa kömək edirdi. Lakin qəbul imtahanlarında rüşvətlə, tapşırıqla yüksək qiymət almaq kimi neqativ hallar baş verirdi [7]. Belə halların baş verməsinin qarşısını almaq, qəbul imtahanlarında obyektivliyi tam təmin etmək qeyri-mümkün idi.

Test üsulundan istifadənin əsas müsbət cəhətlərindən biri “subyektiv” amilini sıxışdırıb aradan çıxarmaqdır.

Keçmiş SSRİ-nin dağılmasından sonra bütün sahələrdə olduğu kimi Rusiyada və müttəfiq respublikalarda təhsil sahəsində də dəyişikliklərin həyata keçirilməsi məsələləri qarşıya çıxdı. Başlıca məsələlərdən biri ABŞ və Qərbi Avropa təhsil sisteminə yaxınlaşmaq idi. Çünki dünyanın ən nüfuzlu universitetlərinin çoxu bu sistemə keçmişdir. Bu problemin həllində ən aktual məsələlərdən biri şagird və tələbələrin biliyinin test üsulu ilə qiymətləndirilməsi məsələsi idi. Təhsilimizin dünya təhsil sisteminə inteqrasiyası dünyada qəbul olunmuş test sisteminin ölkəmizdə də tətbiqini zəruri etdi.

Alternativi olmayan test üsulundan keçmiş SSRİ respublikaları arasında ilk dəfə məhz Azərbaycanda istifadə olundu.

Test sisteminin universal tələbləri imkan verir ki, hər bir vətəndaş öz bilik və qabiliyyətinə görə təhsil almaq hüququ qazana bilsin və imtahan nəticələrinə görə təhsilin vəziyyəti, biliyin səviyyəsi ümumdövlət çərçivəsində aşkar edilsin. Testin əsas məğzi və qayəsi bundan ibarətdir ki, eyni ixtisaslara yiyələnmək istəyən abituriyentlər üçün bərabər imkanlar, bərabər şərait yaradılır, onların qarşısında eyni tələbləri qoyur və cavablarının qiymətləndirilməsi prosesi vahid meyarlar əsasında, heç bir kənar təsir olmadan kompüter vasitəsilə aparılır. Bu yolla imtahan prosesində subyektivlik faktoru aradan götürülür, hər bir abituriyent ali məktəbə öz bilik və bacarığı sayəsində qəbul olmaq imkanı qazanır [7].

Tələbə qəbulu təhsil sahəsində dövlət siyasətinin strateji istiqamətlərindən biridir. Ümumtəhsil məktəb məzunlarının düzgün peşə seçməsini, ali və orta təhsil müəssisələrinə qəbul zamanı obyektivliyi təmin etmək, mövcud neqativ halları aradan qaldırmaq məqsədilə qabaqcıl ölkələrin təcrübəsinə əsasla-

naraq tələbə qəbulu işini mərkəzləşdirilmiş qaydada həyata keçirmək üçün Azərbaycanda 1992-ci ildə Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) yaradıldı. Azərbaycan Respublikası Prezidentinin 27 oktyabr 1992-ci il tarixli fərmanı ilə "Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası haqqında Əsasnamə" təsdiq edildi.

1992/93-cü tədris ilində TQDK tərəfindən ilk tələbə qəbulu keçirildi [9, 296]. Müstəqilliyin ilk illərində bu istiqamətdə müəyyən çətinliklər olsa da, zaman keçdikcə bu proses daha da təkmilləşdirildi, qaydalarda dəyişikliklər edildi.

Test imtahan prosesi birbaşa ciddi dövlət nəzarəti altında həyata keçirilir və bu prosesin nəticəsi kompüter vasitəsilə müəyyənləşir. Ciddi nəzarət mexanizminin tətbiq olunduğu test imtahanının cavab kartlarında hər hansı "əməliyyatın" aparılması, şəxsi və maddi marağı olan şəxslərin belə bir prosesə müdaxiləsi qeyri mümkündür. Bu isə bütün neqativ halların, təhsil sistemimizdə kök salmış "tapşırıq" və rüşvətin qarşısını tamamilə alır və abituriyentlərin biliyi obyektiv yoxlanılır. Ona görə də istedadı və qabiliyyəti, bilik və zəkası, yüksək intellektual səviyyəsi ilə seçilən hər gəncin öz zəhməti hesabına tələbə adına layiq görüləcəyi şübhə doğurmur.

TQDK hər il tələbə qəbulu ilə əlaqədar bütöv bir elmi-metodiki, təşkilati tədbirlər kompleksi hazırlayıb həyata keçirir. TQDK imtahanın mahiyyəti, metodiki cəhəti, həmçinin onun təşkili texnalogiyaları ilə bağlı işləri də ildən-ilə təkmilləşdirir, yeni formalar tətbiq edir. Dövlət Komissiyasının fəaliyyətinin mühüm istiqamətlərindən birini imtahanın məzmunu əhatə edən işlər təşkil edir.

Buraya testlərin qəbulu, müzakirəsi, ekspertizası, qəbul proqramlarının tətbiqi, testlər bankının zənginləşdirilməsi, metodiki ədəbiyyatın hazırlanması, nəşri, yayımı və s. daxildir. Bu işlərin mərkəzində isə belə bir prinsip dayanır: tədrisin bu və ya digər məktəbdəki səviyyəsindən asılı olmayaraq abituriyentlər qarşısında hər bir imtahan fənni üzrə eyni vahid dövlət standartı səviyyəsində tələblər qoymaq. Gənclərin qəbul imtahanlarına hazırlaşmalarına metodik kömək daim diqqət mərkəzində saxlanılır. Onlara kömək məqsədlə bütöv bir elmi-metodiki, təşkilati tədbirlər kompleksi hazırlayıb həyata keçirir. Buraya elmi-metodiki materiallar – ayrı-ayrı fənlər üzrə qəbul proqramları, imtahana hazırlığın optimal yollarına dair metodiki tövsiyələr, fənn proqramlarının çətin mövzularına dair mütəxəssis şərhləri, model testlər və s. daxildir. Məktəblilərə testlərlə işləmək vərdişlərinin artırılması və keçilən mövzuların onlara daha yaxşı mənimsədilməsi üçün fənlər və siniflər üzrə test kitabçaları hazırlanıb nəşr olunur. TQDK imtahana hazırlaşan gənclərə öz hazırlıq səviyyələrini yoxlamaqda, test imtahanının texnologiyasına bələd olmaqda və ona psixoloji cəhətdən alışmaqda kömək etmək üçün sınaq imtahanı keçirir. Sınaq imtahanları əvvəl yalnız Bakıda və ölkənin digər iri şəhərlərində keçirilirdisə, 2001-ci ildən abituriyentlərin və təhsil ictimaiyyətinin müraciətləri nəzərə alınaraq respublikanın bir sıra kənd rayonlarında da təşkil olunub [4, 2].

İmtahanı idarə edən heyətin seçilməsi, abituriyentlərin imtahan zalları

üzrə paylanması, bankdan testlərin seçilməsi, nəticələrin emalı prosesləri tam avtomatlaşdırılıb və bu iş kompüter vasitəsilə yerinə yetirilir. Komissiyanın işində respublikanın elmi və pedaqoji kollektivlərinin təcrübəli və tanınmış nümayəndələri iştirak edirlər. Bu məqsədlə komissiyada bütün fənnlər üzrə daimi fəaliyyət göstərən elmi-metodiki seminarlar və ekspert şuraları təşkil edilmiş, bu işə Elmlər Akademiyasının, ali və ümumtəhsil məktəblərinin, elmi-metodiki mərkəzlərin təcrübəli mütəxəssisləri cəlb olunmuşlar [2, 1].

Komissiyanın mətbu orqanı olan "Abituriyent" jurnalı 1996-cı ildən böyük tirajla nəşr edilir. Jurnalın təkcə 2005-ci ildə 70-dən çox adda sayı və xüsusi buraxılışı Azərbaycan və rus dillərində nəşr edilib qəbula hazırlaşanların istifadəsinə təqdim olunub. Buraya ayrı-ayrı fənlər üzrə qəbul proqramları, fənn proqramlarının çətin mövzularına dair mütəxəssis şərhləri, siniflər və fənlər üzrə test topluları, model testlər, elektron dərs vəsaitləri və s. daxildir. Bu jurnalda abituriyentlərə elmi-metodiki və informatik materiallar vaxtlı-vaxtında çatdırılır. Müntəzəm nəşrə çevrilən "Abituriyent" jurnalı gənclərin qəbul imtahanlarına səmərəli və məqsədyönlü hazırlaşmasında əvəzsiz rol oynayır.

İmtahana düşən hər bir fənn üzrə hazırlanan testlər bankı (hər fənn üzrə orta hesabla 4 mindən 8 minədək, birlikdə isə 100 minə qədər testi əhatə edən bank) 2001-ci ildən leqallaşdırılaraq məcmuələr şəklində nəşr və təkrar nəşr edilərək abituriyent və müəllimlərin istifadəsinə verilmişdir. Testlər bankında sualların qəbul proqramlarına, dərsliklərin bölmələrinə uyğun qruplaşdırılması ondan istifadə edənlərə öz biliklərini yoxlamağa, möhkəmləndirməyə, testlərlə işləmək vərdişlərinə yiyələnməyə və s.-yə imkan yaratmışdır.

2001-ci ildə TQDK-nın İnternetdə saytı açılmışdır. Onun strukturu dünyada qəbul olunmuş standartlara uyğundur. Komissiya İnternet saytının köməyi ilə dünya informasiya sisteminə qoşulub. TQDK-nın öz mətbəəsi yaradılıb [4, 3].

Qəbul imtahanlarına hazırlıq ərəfəsində abituriyentlərin öz hazırlıq səviyyələrini yoxlamaları, test imtahanının texnologiyasına bələd olmaları üçün sınaq imtahanları təşkil olunur. Bölgələrdən olan abituriyentlərin həmin prosesdə iştirakına şərait yaratmaq məqsədilə bu tədbir mütəmadi qaydada bölgələrdə də keçirilir. 2005-ci ildə bütövlükdə respublikanın 24 rayonunda sınaq imtahanları keçirilib və onlarda 1300-dən çox abituriyent iştirak edib.

TQDK ənənəvi olaraq hər il ali və orta ixtisas məktəblərinə tələbə qəbulunun geniş və əhatəli elmi-statistik təhlilini aparır, qazanılan nailiyyətləri ümumiləşdirir, çatışmazlıqları aşkara çıxarır, nöqsanların aradan qaldırılması üçün tövsiyyələr hazırlayır, daha sonra bütün bunların yekunundan materialları çap edərək ictimaiyyətə çatdırır [2, 1].

TQDK imtahan prosesinin şəffaflığının təmin edilməsi, imtahanın bütün mərhələlərində ictimaiyyətin hərtərəfli məlumatlandırılması üçün tədbirlər görür. Qəbul kampaniyasının gedişi və ayrı-ayrı mərhələləri ardıcıl olaraq İnternetdə və kütləvi informasiya vasitələrində işıqlandırılır. Dövlət Komissiyası vaxtaşırı məlumat konfransları və brifinqlər keçirir, televiziya və radio vasi-

təsilə müntəzəm olaraq birbaşa tamaşaçılarla canlı ünsiyyəti təmin edən verilişlər təşkil edir. İmtahandan bir neçə gün sonra isə Komissiya imtahanlarda tətbiq olunmuş test tapşırıqlarını və onların ekspertizadan keçirilmiş düzgün cavablarını "Abituriyent" jurnalında çap edir. İlboyu qəbul prosesinin bütün aktual məsələlərinə dair məlumatlar Dövlət Komissiyasının İnternet saytında Azərbaycan, rus, ingilis dillərində yerləşdirilir və bunlar müntəzəm olaraq təzələnir. Saytda informasiya mübadiləsi xidməti də fəaliyyət göstərir ki, bunun vasitəsilə hər kəs qəbulla bağlı maraqlandığı suallara operativ cavab ala bilər. Hər il imtahanların nəticələrinin geniş elmi-statistik təhlili aparılır. Əldə olunan materiallar çap edilib müəllimlərin, təhsil işçilərinin istifadəsinə verilir. Ali məktəblərə tələbə qəbulu zamanı abituriyentlərin peşə seçiminin səmərəliliyini yüksəltmək məqsədilə ixtisas qruplarının sayı artırılmışdır. Belə ki, 1992-ci ildə 5 ixtisas, 1993-cü ildə 10 ixtisas seçməyə imkan verilirdisə, 1998-ci ildə ixtisasların sayı 15 idi. Abituriyentlərə 5 ödənişli ixtisas seçmək imkanı da yaradılmışdır [3, 4]. Qeyd etmək lazımdır ki, TQDK eyni zamanda abituriyentlərlə peşəyönümü işi də aparır. Tələbə Qəbulu üzrə Dövlət komissiyası peşəyönümü işinin aparılması istiqamətində təşəbbüs göstərərək ixtisasların mahiyyəti, perspektivləri, onlara tələbat sahələri haqqında materiallar hazırlayıb dərc edir. Eləcə də xüsusi qabiliyyət tələb edən ixtisaslara gənclərin meyl və marağını gücləndirmək, onların qəbula hazırlığına kömək göstərmək məqsədilə hər il ali təhsil müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasları ilə bağlı metodiki materiallar hazırlayıb çap edir, televiziya verilişləri təşkil edir və s. Görülən tədbirlər, gənclərin peşəyönümü və ixtisas seçimi işinin yaxşılaşdırılmasına, abituriyentlərin imtahan nəticələrinə faydalı təsir göstərir [5, 7].

Bütün bunların nəticəsidir ki, son illər abituriyentlərin bilik səviyyəsi və ixtisaslar üzrə keçid balları da yüksəlmişdir. Əgər 1996-cı ildə abituriyentlərin 40 faizi 0-100 bal həcmində bilik nümayiş etdirirdisə, 1999-cu ildə bu rəqəm 29 faiz təşkil etmişdir [6, 4].

Azərbaycan Respublikası Prezidentinin 6 aprel 2005-ci il tarixli Fərmanı ilə "Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası haqqında Əsasnamə" yenidən təsdiq olundu. Həmin Əsasnaməyə uyğun olaraq, təşkilat-hüquqi və mülkiyyət formasından asılı olmayaraq, Azərbaycan Respublikasının ali təhsil məktəblərinin bütün səviyyələrinə (magistratura da daxil olmaqla) mərkəzləşdirilmiş qaydada tələbə qəbulunun həyata keçirilməsi, dövlətlərarası razılaşmalara əsasən Azərbaycan Respublikası vətəndaşlarının xarici dovlətlərin ali məktəblərinə qəbulunun aparılması səlahiyyətləri Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına verildi [7, 25].

Testin əsas məğzi və qayəsi bundan ibarətdir ki, eyni ixtisaslara yiyələnmək istəyən şəxslər üçün bərabər imkanlar, bərabər şərait yaradılır, onların qarşısında eyni imtahan tələbləri qoyur və cavablarının qiymətləndirilməsi prosesi vahid meyarlar əsasında, heç bir kənar təsir olmadan kompüter vasitəsilə aparılır [4, 2]. Bu yolla imtahan prosesində subyektivlik faktoru aradan götürülür, hər bir şəxs ali məktəbə öz bilik və bacarığı sayəsində qəbul olmaq

imkanı qazanır. Test üsulu hər şeydən əvvəl Azərbaycan təhsil sistemində kök salmış neqativ halların aradan qaldırılmasına istiqamətləndirilmişdir. Bu sistem təhsildə biliyin yeganə və etibarlı dəyərləndirmə vasitəsidir. Hazırda ölkəmizdə testlə qəbul imtahanı bu sahədə olan rüşvətin qarşısını tamamilə almışdır.

Respublikamızda təhsil sisteminin təkmillışdirilməsi prosesində ali və orta ixtisas məktəblərinə tələbə qəbulunun test üsulu ilə keçirilməsi bu sahədə kök salmış mənfi halları aradan qaldırmışdır. İctimaiyyətdə böyük rəğbətlə qarşılanmış test üsulu tələbə kontingentinin daha bilikli və istedadlı gənclərdən təşkil edilməsi üçün geniş imkanlara malikdir. Bütün başqa üsullarla müqayisədə ali məktəblərə qəbul prosesində ən ədalətli üsul kimi tanınmışdır.

Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra dünya təcrübəsində daha müasir, daha ədalətli hesab olunan test üsulu ölkəmizdə uğurla tətbiq olunmuş və günü-gündən təkmilləşdirilərək müxtəlif problemlər yaşayan ölkəmizin ən əsas nailiyyətlərindən biri kimi dəyərləndirilmişdir.

### ƏDƏBİYYAT


1. Abituriyent jurnalı. Elmi-statistik araşdırma: faktlar, məlumatlar, tövsiyələr. Bakı,1996, № 12
2. Abituriyent jurnalı. Tələbə qəbulu- 98: nəticələr. Bakı, 1998, № 12
3. Abituriyent jurnalı. Tələbə qəbulu- 2000: nəticələr. Bakı, 2000, № 12
4. Abituriyent jurnalı. Tələbə qəbulu- 2001: nəticələr. Bakı, 2001, № 12
4. Abituriyent jurnalı. 2002/2003-cü tədris ili üçün tələbə qəbulunun nəticələrinin elmi-statistik təhlili. Bakı, 2003, № 1
6. Abituriyent jurnalı. Tələbə qəbulu- 2005: nəticələr. Bakı, 2005, № 12
7. “Azərbaycan müəllimi” qəz., Bakı, 1993, № 4
8. Mərdanov M. Azərbaycan təhsil tarixi. IVc. Bakı: Təhsil, 2012, 912 s.
9. Qaffarov T.B. Azərbaycan Respublikası. Əsrə bərabər on il (1991- 2001). Bakı: Tural-Ə, 2001, 325 s.
10. Мишин В.Реформа начинается с образования // Yurd jurn., Bakı,1999, № 14, 24 с.


## ИСПОЛЬЗОВАНИЕ ТЕСТОВОЙ СИСТЕМЫ – ПЕРВАЯ УДАЧА В НАЦИОНАЛЬНОЙ СИСТЕМЕ ОБРАЗОВАНИЯ


**Г.Г.МАХМУДОВА**


### РЕЗЮМЕ


В статье были рассмотрены вопросы приема студентов в высшие и средние учебные заведения Азербайджанской Республики тестовым методом в контексте проводимых в стране первые годы независимости реформ в области образования. Подвергнув сравнительному анализу применяемые в разных странах мира тестовой системы экзаменирования, мы указали преимущества подобного метода. В статье также изучены меры, проводимые в нашей стране в целях усовершенствования указанной системы.



**Ключевые слова:** тестовая система, прием студентов, высшее образование.

# THE IMPLEMENTATION OF THE TEST METHOD IS THE FIRST SUCCESS OF OUR NATIONAL EDUCATION SYSTEM

**G.H.MAHMUDOVA**

**SUMMARY**

The article analyzes students' admission to higher and secondary specialized educational institutions by test method – one of the important measures of educational reforms implemented in the country in the first years of independence. The great advantages of the test method widely used in the education systems of many countries are highlighed, and the activities carried out in the country to improve this system are studied.

**Key words:** test system, students' admission, higher education